# AZƏRBAYCAN MİLLİ PUBLİSİSTİKASININ SİYASİ STRATEGİYASI (1918-1920)

**E.A.NİFTƏLİYEV**
*Bakı Dövlət Universiteti*
*Elnur Lider@hotmail.co.uk*

1918-1920-ci illər Azərbaycanda və onun ətrafında gedən proseslər dövrü mətbuatda öz əksini geniş şəkildə tapırdı, çünki ideoloji mübarizənin ağırlığı Azərbaycan jurnalitikasının üstünə düşürdü.

Jurnalistikanı məşgul edən problemlər içərisində siyasi məsələlər xüsusi yer tuturdu. Hətta o dərəcədə idi ki, jurnalistikanın mühüm bir hissəsinin siyasiləşdiyini də söyləmək mümkündür. Azərbaycan siyasi şüurunun təşəkkülündə də Rusiyada baş verən iki inqilab (1905; 1917) ciddi rol oynamışdır. Bu haqda M.Ə.Rəsulzadə yazırdı: «Fəqət Rusiya inqilabi–səğirini təşkil edən 1905 sənəsi, Rusiya türkləri üçün milli inkişaf dövrünün ibtidasını təşkil etmişdir» (1, 18).

Daha sonra isə müəllif milli, siyasi şüurun inkişafında mətbuatın aparıcı mövqeyini dəyərləndirərək yazırdı: «Mətbuatın təsisi ilə Qafqasiyada siyasi, ictimai və milli bir fikir təşəkkül ediyordu. Həyati – milliyə üçün pək mühüm olan bir taqım məsələlər müzakirə ediyordu. Qəzetlərin bu günkü milliyyətlər təşəkkülündə oynadıqları rol məlumdur. Bu rolunu onlar Rusiya türkülüyü üçün dəxi ifa ediyorlardı» (2, 18).

Bu dövrdə jurnalist çıxışlarının mövzu–problem dairəsi də olduqca genişlənirdi. Dövlət quruculuğunun mürəkkəb şəraitdə keçməsi ilə bağlı yaranan problemlər AXC dövrü jurnalistikasını məşğul edən mövzular idi. AXC dövrü jurnalistikasının mövzu arsenalına milli müstəqilliyi qoruyub saxlamaq, milli ordu yaratmaq, ölkədə demokratik parlament seçkiləri keçirmək, bolşevik və Denikin təhlükəsini rədd etmək, Qarabağda erməni millətçilərinin törətdikləri müharibə yanğınını söndürmək, ölkə daxilindəki təriqətçiliyi, Bakı nefti uğrunda xarici imperialistlərin apardıqları didişmələri göstərmək və s. daxil idi.

Bu dövrün tədqiqatçı alimlərinin əksəriyyəti dövrün mətbu orqanlarının məzmun və ideya-siyasi istiqamətini araşdırarkən bu qənaətə gəlirlər ki, AXC dövrü jurnalistikası ideya-siyasi mövqeyinə görə iki başlıca istiqaməti özündə əks etdirirdi.

Birinci, alınan informasiya əsasən milli azadlıq ideyalarına xidmət edirdi. Ona görə də, Cümhuriyyət ideyalarını daşıyan, yayan, təbliğ edən demokratik mətbuatı – Milli demokratik mətbuat; sosial problemləri süni şəkildə şişirdərək xalqı parçalamaq, qarşıdurma yaratmaq, sinfi mübarizə kimi milli birliyi parçalayan ziyanlı ideologiyanı təbliğ edən isə bolşevik mətbuatı idi. Əks təbliğat orqanı olan bu bolşevik mətbuatı müstəqilliyimizi, azadlığımızı boğmaq üçün hər cür təxribata, çirkinliyə əl atırdı. Dövrü mətbuatı nəzərdən keçirərkən bir daha aydın oldu ki,

AXC çox mürəkkəb və çətin bir şəraitdə yarandı. «Bakı Sovet hökuməti hakimiyyətdən əl çəkmək istəmir və cildini dəyişmiş rus imperiyası tərəfindən dəstəklənirdi. Ermənilərsə kütləvi repressiya tərəfindən dəstəkləmişdilər. Onlar «bütün Türkiyəni tutmaq, bütün Qafqazda hakimiyyət qurmaq siyasəti yeritməyə, erməni millətinin səadətini qonşu dövlətlərin kəmiklərin üstə yapmağa səy edirdilər» (3, 4).

Beləliklə, 1918-1920-ci illərin ictimai-siyasi həyatında mövqeyi olan partiya və qruplaşmalar özünə tərəfdar toplaya bilmişlər. Onların fəaliyyəti özlərinin müvafiq mətbuat orqanlarında təmsil olunurdu. Bu dövrün mətbuatında da Azərbaycan parlamentində təmsil olunmuş partiyaların mövqeyi aydın hiss olunurdu. Bu mübarizədə qalib gəlmək üçün milli demokratik mətbuat daha çox siyasi publisistikaya geniş yer verirdi.

AXC dövrü milli demokratik mətbuatın siyasi problemləri ilə bağlı aktiv çıxış edən müəlliflər içərisində M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli, C.Hacıbəyli, M.Hadi, F.Ağazadə, A.Ziyadxanov, M.Məmmədzadə, M.S.Axundov, Ş.Əfəndizadə, B.Seyidzadə, Y.V.Çəmənzəminli, Ə.Müznib, Şeyxül İslam Axund Ağazadə və b. var idi. Bolşevik mətbuatında isə bu məsələyə müxalif mövqedən yanaşanlar içərisində M.S.Ordubadi, Ə.Qarayev, Ş.Pişəvəri, R.Axundov, D.Bünyadzadə, M.Quliyev, S.M. Əfəndiyev və başqalarını göstərmək olar. «Dövrün ən kəskin problemi olan milli məsələdə bolşeviklər və müsavat daban-dabana zidd mövqelərdə dayanırdılar. Unitar dövlət tərəfdarı olan və dünya inqilabı ideyası ilə xəstələnmiş bolşeviklər Azərbaycanın milli muxtariyyati uğrunda mübarizə aparan «Müsavat»a təhlükəli düşmən kimi baxırdılar» (4, 19).

M.B.Məmmədzadə milli istiqlalın başlanğıcı məqamını izah edərək yazırdı: «1918-ci il yanvarın 16-da Bakıda Milli Şura toplanmış və yeni bir qanun qəbul etmişdi. Bu qanuna görə ölkənin bəzi qisimləri ilə Milli Şurada olmayan milli azlıqlara nümayəndə göndərmək haqqı verilir və beləliklə, 120 deputatdan ibarət bir parlament toplanması təsəvvür edilirdi. 1918-ci il dekabrın 7-də bir parlament toplanmışdır. Parlamenti açarkən söylədiyi açılış nitqində Rəsulzadə Məmməd Əmin bəy Azərbaycan bayrağına xitabən: «Bir kərə yüksələn bayraq, bir daha enməz» demişdi» (10, 3). Azərbaycan milli publisistikasının siyasi strategiyası əsrin əvvəllərində Ə.Hüseynzadə tərəfindən irəli sürülmüş «Türkləşmək, islamlaşmaq, müasirləşmək» kimi mükəmməl bir ideya formulunda və sonralar təkmilləşmiş azərbaycançılıq ideologiyasında bir konsepsiya kimi müəyyənləşdi. Bu konsepsiyanı həyata keçirən Azərbaycan publisistikası milli və dini dəyərləri qoruyub saxlamaqla çağdaş dünyanın mütərəqqi elm və mədəniyyət nailiyyətlərindən məqsədyönlü şəkildə faydalanmağı təbliğ edirdi.

1918-1920-ci illər Azərbaycan milli mətbuatında istiqlal düşüncəsini möhkəmləndirən siyasi çıxışların ən parlaq nümunəsini M.Ə.Rəsulzadə verib. Onun çıxışları mükəmməl milli ideoloji konsepsiyasından, özünün də ciddi əməyi olduğu yekun siyasi proqramdan-müsavatçılıqdan irəli gəlirdi. O yazırdı: «Mən mətbuatı çox aradım. Lakin Bakı barədə bir yazıya rast gəlmədim. Bu həvəs mənə cəsarət verdi: müxtəsər də olsa, Bakının tarixi haqqında bir kaç yarpaq qaralayım. Şübhəsiz ki, bu sətirlərdə veriləcək məlumat Azərbaycan paytaxtının şan və heysiyyəti və hücriyyəti ilə olmayacaq... Düşündüm ki, naqis də olsa, bir şey olsun. Biz

naqisini başlarıq, mütəşəbbüs gənclərimiz də çalışar, vətən eşqi məmləkət məhəbbəti ilə səy edər, bu başlanğıcı təkmil edərlər...» (2, 211).

M.Ə.Rəsulzadənin ardıcıl mətbu çıxışları Azərbaycan xalqının tarixi keçmişi, yaşadığı ərazinin coğrafi hüdudlarını təsvir edir, vətən və millət sevgisi təbliğ edərək, demokratik dəyərlər aşılayırdı. Onun siyasi məqalələri ideya dolğunluğu və məzmun zənginliyi ilə bərabər ciddi şəkildə ümumiləşdirilmiş həyati faktlara əsaslanırdı. 1918-ci ilin sonunda Azərbaycan Milli Şurasının açılması münasibəti ilə yazdığı «Hanki ümidlə» başlıqlı məqaləsində milli demokratik dövlətin perspektivinə kütlə içərisində ümid hissləri artırdı. «Samoupravlenie» məqaləsində isə saxta, sinfi mübarizə ideyası altında xalqı parçalamağa çalışan müxtəlif siyasi partiyaların pozuculuq fəaliyyətinə kəskin münasibət bildirir. Məclisi-Müəssisatda Azərbaycan bolşeviklərinin xəyanət və Rusiya bolşevik hökumətinin milli demokratik dövlət üçün nə dərəcədə təhlükəli olması «Azərbaycan» qəzetində bu şəkildə təqdim olunur: «Əfəndilər! Məsələ qətiyyən pək mühümdür. Zənn etməyiniz ki, mənim könlümə Rusiya bolşeviklərinə qarşı o qədər böyük inad vardır ki, sui-niyyətə alışaraq onlarla anlaşmaq istəməm. Xeyir, həmişə mühakimə etmək mümkündü, bir taqım şəraiti-siyasiyə ilə uzlaşmaq, barışmaq olur» (4, 40).

M.Ə.Rəsulzadə dövrün siyasi hadisələrinə aktiv şəkildə münasibət bildirmişdir. Onun siyasi çıxışlarının əksəriyyəti «Azərbaycan» qəzetində nəşr olunmuşdur. Bu çıxışlar xalqı səfərbər etmək, iqtisadi-siyasi problemlərin müvəqqəti olmasını sübut etmək, müstəqilliyin ağır sınaqlarına dözmək, optimist ümidləri itirmək və s. kimi məsələlərə həsr olunurdu. Onun siyasi çıxışları sonralar AXC-nın görkəmli siyasi xadimi M.B.Məmmədzadə tərəfindən belə müddətincə (1918-1920) gərək parlamentdə, gərəksə parlament xaricindəki nitq və məruzələri, məqalə və bəyanatları da bu milli türk dövlətinin və bu ilk müsəlman cümhuriyyətinin möhkəmlənməsinə xidmət edirdi» (1, 50).

M.Ə.Rəsulzadənin məslək və əqidə dostu olan M.B.Məmmədzadənin də Azərbaycanda milli azadlıq düşüncəsinin formalaşmasında siyasi baxışları böyük əhəmiyyət kəsb edirdi. AXC-nin yaradılmasında, müstəqillik və dövlət quruculuğu işlərinin təbliğində «Açıq söz», «İstiqlal», «Bəsirət», «Azərbaycan» qəzetlərində silsilə şəkilndə dərc etdirdiyi publisistik məqalələrində M.B.Məmmədzadə milli istiqlalı qorumaq uğrunda bütün siyasi qüvvələri birliyə çağırırdı.

M.B.Məmmədzadə müntəzəm olaraq dünyada və Azərbaycanda baş verən siyasi hadisələrin ciddi müşahidəsini aparır və onlar haqqında ətraflı, maraqlı publisistik məqalələr yazırdı. Onun «İstiqlalımız və istiqbalımız», «Əhd ediyorum», «Haqq təşkilatları», «Siyasi əhval», «Azərbaycan və Türkiyə», «Bizdə sinif mübarizəsi», «Dostlarımız və düşmənlərimiz» və «Müttəfiqlər» sərlövhəli bədii publisist məqalələri daha aktual məsələlərə həsr edilmiş, oxucunu Azərbaycanın milli-azadlığı, müstəqilliyi uğrunda mübarizəyə səsləyirdi.

Azərbaycan siyasi şüurunda istiqlal düşüncəsinin möhkəmləndirilməsi uğrunda M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə ilə yanaşı Ü.Hacıbəylinin də xüsusi xidmətləri olmuşdur.

Üzeyir Hacıbəylinin publisistikasında siyasi istiqlal ideyası aparıcı xətt kimi seçilir. «Partiyamıza» adlı yazısında görkəmli jurnalist yazır: «Bir şəxs və ya bir partiya bir millətin azadlığı əleyhinə çalışarsa və o milləti digər millətin və ya bir neçə nəfər xudsər adamların hökmü al-

tında qul etmək istərsə, o şəxs və ya o partiya bugünkü inqilabat nöqteyi-nəzərindən insaniyyətə düşməndir. Adını sosialist də qoymuş olsa, hürriyyətpərəst də qoymuş olsa, yalandı. Onun əsl adı insaniyyət düşmənidir» (7, 2). Yazı müəllifi xalqı başqa millətlərin iradəsinə tabe etməyə çağıran siyasi partiyaları kəskin tənqid edir və Azərbaycan xalqının azad yaşamaq hüququnu jurnalist mövqeyindən fəal şəkildə müdafiə edir: «Bəs kimin insafı yol verər və kimin vicdanı qəbul edər ki, Rusiyadakı bütün millətlər, istibdad dövründə də Azərbaycan türklərinə nisbətən istirahətlə yaşadıqları halda, bu gün təkmil hüquqlarına nail olsunlar da, amma Azərbaycan türkləri bu hüquqdan məhrum edilsinlər!» (8, 2) «Tarixi günümüz» məqaləsində istiqlalın mühüm bir hadisə kimi milli-mədəni inkişafı rolu və əhəmiyyəti qiymətləndirilir: «Bu gün o gündür ki, Azərbaycan türklərinin milli məclisi, milli şurası açılıb. Azərbaycan təkmil bir hökumət şəklinə girir» (5, 2) «Təəssürat» başlıqlı yazıda demokratik cəmiyyətin səciyyəvi cəhətləri təsvir edilir: «Padşahlı məmləkətlərdə məclisi-məbusanı padşah açar, amma Azərbaycan Cümhuriyyətinin məclisi məbusanını bir nəfər vətən övladı açdı» (5, 3).

Üzeyir bəy Hacıbəylinin publisistik yaradıcılığının 1918-1920-ci illər dövrü bu günə qədər çox az tədqiq edilmişdir. Çünki həmin illər Azərbaycan Demokratik Cümhuriyyətinin fəaliyyəti ilə bağlıdır. Şükürlər olsun ki, son vaxtlar 1918-1920-ci illər haqqında tədqiqatlar aparılır, mətbuat səhifələrində maraqlı məqalə və yazılar dərc olunur. Ü.Hacıbəylinin yaradıcılığının bu iki ili indiyə qədər yasaq saxlanılmışdır. Halbuki həmin illərdə də Üzeyir bəy çox ciddi işləmiş, yaradıcılığı bəhərli olmuşdur. Üzeyir bəy Hacıbəyli Azərbaycan Demokratik Cümhuriyyətinin orqanı olan «Azərbaycan» qəzetində güclü publisist qələmi ilə çıxış etmiş, sonra isə qəzetin redaktoru kimi fəaliyyət göstərmişdir.

1918-ci ilin qanlı mart hadisələrindən sonra Üzeyir bəy Nəriman Nərimanovun təhriki ilə bir neçə müddətə «Hacıbəyov qardaşlarının teatr truppası» ilə İrana yola düşmüşdür. 1918-ci il oktyabr ayının 23-də o, yenidən Bakıya qayıtmışdır.

Azərbaycan Demokratik Cümhuriyyəti parlamanının ilk iclası 1918-ci il dekabr ayının 7-də olmuşdur. Ü.Hacıbəyli bu tarixi hadisəyə «Azərbaycan parlamanı» adlı çox qiymətli məqalə həsr etmişdir.

Üzeyir bəy yazırdı: «Gözlər var ki, dünənə qədər əsir və qul olan bir milləti bu gün azad və sərbəst görmək istəmirlər;

Qulaqlar var ki, bir əsrdən artıq məhkum qalan bir millətin bu gün müstəqil və azad olmasını qəbul etmək istəmirlər» (5, 3).

Üzeyir bəy Hacıbəylinin Azərbaycan xalqının azadlığını, müstəqilliyini istəməyənlərə cəsarətli, qəti cavabı bu olmuşdur: «Azərbaycan torpağından çıxıb getsinlər!».

XX əsrdə üç dəfə doğma Azərbaycan, gözəl Qarabağımız erməni məkrinə və fitnəsinə düçar olmuşdur. Bunun ikisi (1905 və 1918-ci il hadisələri) Üzeyir bəyin gözləri önündə baş vermişdir.

Böyük sənətkarımız Üzeyir bəy Hacıbəyli 1919-cu ildə «Azərbaycan» qəzetində yazırdı ki: «1918-ci ilin mart hadisələri qabaqcadan düşünülmüş siyasi aksiyadır. Erməni quldurlarının – istər Andronikin, istərsə də onu göndərən daşnakların arxasında gizli bir əl vardır. Yoxsa Qarabağ ermənilərinin Azərbaycan hökumətinə tabe olmamaq qəsdilə göstərməkdə olduqları inad həyasızlıq dərəcəsinə çatmazdı» (5, 4).

Üzeyir bəy daha sonra qeyd edirdi: «Bugünкü vəzifəmiz o qara günləri yaddan çıxarmamaq və buna görə də həmişə, hər an hazır olmaqdır! Belə hazırlıq кi, bu hadisələr bir də təкrar edilsə müdafiəsinə qadir olaq!» (7, 4).

Əfsuslar кi, Üzeyir bəy Hacıbəyli кimi peyğəmbəranə şəxsiyyətimizin bu vəsiyyəti unudulmuş, xain, düşmən millətin qadınları «кişilərimizə» arvadlıq etmiş, murdar erməni qanı ilə dünyaya övladlar gətirmişlər. Xalqımızın faciəsi də məhz buradan başlayıb. İçimizdəкi xainlər, düşmənlər bu izdivacdan əmələ gəlmişlər.

Belələri haqqında böyüк uzaqgörənliкlə Ü.Hacıbəyli hələ 1919-cu ildə «Azərbaycan» qəzetində dərc etdirdiyi «İçimizdəкi deniкinlər» adlı məqaləsində yazırdı: «Bir Deniкin var кi, bizi xaricdən təhdid edir, bir çox deniкinlər də var кi, içimizə dolub, ən xətərli yerlərdə gizlənib, bizi daxildən qorxudurlar».

Candan əziz olan istiqlalımızı əlimizdən almaqla canımızı almaq istəyirlər. Buna görə istiqlalımızı əldən verməməк üçün bu fövqəladə zamanda fövqəladə işlər də görülməlidir кi, o işlərin ən mühümü özümüzü xarici Deniкin ilə bərabər, daxili deniкinlərdən qorumaq təşəbbüsüdür» (7, 4).

Böyüк ustalıqla və siyasi uzaqgörənliкlə yazılmış bu məqaləni oxuduqca sanкi bu günümüzü görürüк. Başımıza gələn bəlaların açarı məhz bundadır. Unutqanlığımız olmasaydı, dahilərimizin yazıb qoyduqlarını öyrənə bilsəydiк, Qarabağımızın vəziyyəti bu yerə gəlib çatmazdı.

Araşdırmalar göstərir кi, bu dövr Azərbaycan siyasi jurnalistiкasının, publisistiкasının uğurları birbaşa Azərbaycanın istiqlalı, dövlət müstəqilliyi ilə bağlıdır.

Təbiidir кi, jurnalistiкa həm də siyasi mübarizə meydanıdır. Azərbaycan jurnalistiкası da bu illərdə onun gücündən, imкanlarından istifadə etməкlə кütlələrin siyasi şüuruna təsir etməyə, onlarda müəyyən istiqamətdə dəyişiкliкlər etməyə, yeni təsəvvürlər yaratmağa səy göstərmişdir.

## ƏDƏBİYYAT


1. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Baкı: Elm, 1990, 110 s.
2. Rəsulzadə M.Ə.Əsərləri, 2 cilddə, I c. Baкı: Şirvannəşr, 1990, 306 s.
3. «Bəsirət» qəz., Baкı, 1919, 29 avqust.
4. Balayev A. 19117-1920-ci illər Azərbaycan milli hərəкatında müxtəlif siyasi partiyaların rolu. Baкı: Azərnəşr, 1992, 200 s.
5. «Azərbaycan» qəz., Baкı, 1918, 7 deкabr.
6. «Azərbaycan» qəz., Baкı, 1919, 25 oкtyabr.
7. «Azərbaycan» qəz., Baкı, 1919, 20 aprel.
8. Hüseynov Ş. Mətbu irsimizdən səhifələr. Baкı: Adiloğlu, 2007, 210 s.
9. Hüseynov Ş. Mənəvi irsimiz və gerçəкliк. Baкı: Ağaoğlu, 2004, 300 s.
10. Paşayev A. Açılmamış səhifələrin izi ilə. Baкı: Adiloğlu, 2001, 410 s.
11. Dünyaminqızı Q. Cümhuriyyət dövrü Azərbaycan mətbuatı (1918-1920-ci illər) I hissə. Baкı: ADPU, 2005, 110 s.

## ПОЛИТИЧЕСКАЯ СТРАТЕГИЯ АЗЕРБАЙДЖАНСКОЙ НАЦИОНАЛЬНОЙ ПУБЛИЦИСТИКИ (1918-1920)

**Э.А.НИФТАЛИЕВ**

**РЕЗЮМЕ**

Формирование независимого мышления и идеологии в Азербайджане началось в период АДР.

АДР стала первой республикой в мусульманском мире. Процесс формирования общественной мысли, национального и местного самосознания особо развивался в 1918-1920-ых годах XX столетия. В этом особая заслуга принадлежала печати. Причиной общего развития печати этого периода являлась его идейно-политическая ценность содержания СМИ. Ожесточившаяся классовая борьба в общественно-политической жизни отражалась в влияла на печать в целом того периода.

## THE POLITICAL STRATEGY OF AZERBAIJAN NATIONAL PUBLICISM

**E.A.NIFTALIYEV**

**SUMMARY**

The independence in ideology and consciousness appeared during the Azerbaijan Democratic Republic. The Azerbaijan Democratic Republic was the first republic in the Moslem world. Generally the process of formation of social, national and literary thinking got intensive character in the years of 1918-20. The role of press in this process was irreplaceable. The general character of the development of the press in this period first of all was in the context of its richness. The tense class struggles going on in the socio-political life of that period got their reflection in the press as well.